5. Riyazül İslam. Tarix-e rəvabet-e İran-o Hind (dər doure-yi Səfəviye-o əfşariyye) /Tərcüme: Məhəmmədbağer Aram, Abbasqulu Qaffari, Tehran, Enteşarate Əmir Kəbir, 1373, 401 s.
6. Фарзалиев А., Мамедова Р. «Сефевиды и Великие Моголы в мусульманской дипломатике», СПб.: Филологический факультет СПбГУ, 2004, 228 с.

**ОБ ОТНОШЕНИЯХ ЗАХИРИДДИНА БАБУРА С СЕФЕВИДАМИ ПОСЛЕ ПОРАЖЕНИЯ ПРИ ГИЖДУВАНЕ**

***Мамедова Егана Ехсан кызы***

***Резюме***

Данная статья посвящена изучению отношений Захириддина Бабура с сефевидами, после битвы при Гиждуване. Следует отметить, что после этой битвы союз между Бабуром и шахом Исмаилом I нарушается. Бабур не был заинтересован в полном разрыве отношений с сефевидами, и по этой причине, стремился восстановить отношения с ними, как только для этого будут созданы подходящие условия. Следует также отметить, что в этот период отношения Бабура с сефевидами не были подробно изучены, и эта статья служит устранению этого разрыва.

**ON THE RELATIONSHIP OF ZAKHIRIDDIN BABUR WITH THE SAFAVIDS AFTER THE DEFEAT AT GIJDUVAN**

***Mammadova Egana Ehsan***

***Summary***

This article is devoted to the study of the relationship of Zakhiriddin Babur with the Safavids, after the battle of Gijduvan. It should be noted that after this battle, the alliance between Babur and Shah Ismail I is broken. Babur was not interested in completely breaking off relations with the Safavids, and for this reason, sought to restore relations with them as soon as suitable conditions were created for this. It should also be noted that during this period, Babur's relations with the Safavids were not studied in detail, and this article serves to bridge this gap.

***Rəyçi: dos. E.M. Paşayeva***
***Ümumi tarix kafedrasını 31 may 2021-ci il tarixli iclasın 05 saylı protokolu***
***Daxil olma tarixi 16 noyabr 2021-ci il***

**UOT:94.(479.24)**

**HEYDƏR ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA RƏHBƏRLİYİ DÖVRÜNDƏ AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN İNKİŞAFI (1991-1993)**

***Namazova Elminaz Məhərrəm qızı***
***Gəncə Dövlət Universiteti***
*elminaznamazovae@mail.ru*

**Xülasə**: *Azərbaycan-Türkiyə əlaqələri ulu öndər Heydər Əliyevin dediyi kimi "Bir millət iki dövlət" tezisinə əsaslanır.*

*1991-ci il sentyabrın 3-də Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri seçildikdən sonra Naxçıvan-Türkiyə münasibətləri yeni mərhələyə qədəm qoydu. Naxçıvanın həyatı tələbatını ödəmək, kommunikasiya əlaqələrini bərpa etmək üçün protokollar imzalandı.*

*1991-ci il noyabrın əvvəllərində Araz çayı üzərində avtomobil körpüsünün tikilməsi, keçid məntəqəsi yaradılması nəticəsində Türkiyə hökumət nümayəndələrinin, iş adamlarının Naxçıvana səfərləri, muxtar respublikaya göstərilən yardımın həcmi artmışdı.*

*1992-ci ilin martında Heydər Əliyevin qardaş ölkəyə işgüzar səfəri oldu. Bu səfər zamanı muxtar respublikanın qonşu dövlətlə bütün sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi məqsədi ilə protokol imzalanmışdı.*

*1992-ci il mayın 28-də "Sədərək-Dilucu" "Ümid" körpüsünün istifadəyə verilməsi Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında mühüm mərhələ oldu.*

*1992-ci ilin mayında Ermənistanın Naxçıvana təcavüzü ilə bağlı Türkiyə hökuməti bəyanat qəbul etmiş və 1921-ci il Qars müqaviləsinə əsasən Naxçıvanın muxtariyyətinin qarantı olduğunu bütün dünyaya bəyan etmişdi.*

*Ümunmmilli liderimiz Hedər Əliyevin Azərbaycan-Türkyə mədəni əlaqələrinin inkişafında da danılmaz və əvəzedilməz xidmətləri vardır.*

**Açar sözlər**:Azərbaycan, Türkiyə, Heydər Əliyev, Naxçıvan, xarici siyasət

**Ключевые слова:** Азербайджан, Турция, Гейдар Алиев, Нахичевань, внешняя политика

**Key words:** Azerbaijan, Turkey, Heydar Aliyev, Nakhchivan, Foreign Policy

Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr bu əlaqələri şərtləndirən amillər sırasında yer alır.

Türkiyə Azərbaycan üçün beynəlxaq aləmdə müttəfiq və dayaqdırsa, Azərbaycanın da güclü dövlət olması Türkiyənin dünya siyasətində gücünün və rolunun artması deməkdir.[1]

Ölkəmizin müstəqillik qazanması və beynəlxalq münasibətlərin subyektinə çevrilməsi ilə onun xarici əlaqələrinin inkişafında sərhəd bölgəsində yerləşən Naxçıvanında rolu artmış oldu. Ermənistanın Azərbaycana qarşı yeritdiyi siyasət nəticəsində Naxçıvan Muxtar Respublikası ölkənin əsas ərazisi ilə birbaşa nəqliyyat-kommunikasiya əlaqələrindən məhrum olmuşdur.

1991-ci il sentyabrın 3-də Heydər Əliyev Naxçıvan Ali Məclisinin Sədri seçildikdən sonra Naxçıvan-Türkiyə münasibətləri yeni mərhələyə qədəm qoydu." Naxçıvan-Türk islam dünyasına bir qapıdır" deyən Heydər Əliyev bu istiqamətdə ardıcıl, məqsədyönlü fəaliyyət göstərməyə başladı. Həmin il oktyabrın 29-da Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda Azərbaycan-Türkiyə arasında Araz çayı üzərində körpü müvəqqəti istifadəyə verildi. Həmin körpünün rəsmi açılış mərasimində Ali Məclisin sədri Heydər Əliyevlə bərabər Türkiyə hökumət dairələrinin nümayəndələri, Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri də iştirak etdilər. Bununla da70 il ərzində bir-birlərinə həsrət qalan bu qardaş ölkələr arasında ilk gediş-gəliş əlaqələri yaradıldı. Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvanın ağır dövründə qurduğu beynəlxalq əlaqələr muxtar respublikanın mövcudluğu üçün bəlkə də yeganə vasitəyə çevrildi.

1991-ci il noyabrın əvvəllərində Türkiyə Nəqliyyat Nazirliyinin nümayəndə heyəti muxtar respublikaya səfər etmiş, səfər zamanı Ali Məclisin sədri ilə Araz çayı üzərində avtomobil körpüsünün tikilməsi, keçid məntəqəsi yaradılması haqqında məsələlər müzakirə edilmiş, muxtar respublika Nazirlər kabineti ilə həmin qurum arasında protokol tərtib edilmişdir.[2]

Heydər Əliyevinn uzaqgörən siyasəti nəticəsində müvəqqəti körpü istifadəyə verildikdən sonra Türkiyə hökumət nümayəndələrinin, iş adamlarının, Naxçıvana səfərləri, muxtar respublikaya göstərilən yardımların həcmi artmışdı. Bu dövrdə Naxçıvan-Türkiyə əlaqələrinin inkişafında Heydər Əliyevin başçılığı ilə Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətinin qonşu ölkəyə səfərləri xüsusi rol oynadı.[2]

1992-ci ilin martında Naxçıvanın ictimai-siyasi həyatında görünməmiş bir hadisə baş verdi. Türkiyənin o vaxtki baş naziri S. Dəmirəlin göndərdiyi şəxsi təyyarə ilə Heydər Əliyevin dost ölkəyə işgüzar səfəri oldu. Səfər zamanı Türkiyə Respublikasının Prezidenti

T.Özal, baş nazir S.Dəmirəl ilə əhəmiyyətli görüşlər keçirildi. Görüşlərdə əsas müzakirə edilən məsələ, təbii ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü və Naxçıvanın düşdüyü ağır vəziyyətlə bağlı olmuşdur. Muxtar respublikanın qonşu dövlətlə bütün sahələrdə əməkdaşlığının inkişaf etdirilməsi məqsədi ilə Türkiyənin baş naziri və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri birgə protokol imzalamışdılar. 1992-ci ilin 22-25 martında imzalanmış 13 maddəlik birgə əməkdaşlıq protokolunda muxtar respublikaya maliyyə, iqtisadi, texniki yardım göstərilməsi, muxtar respublikanın zəruri ehtiyaclarını ödəmək üçün 100 milyon ABŞ dolları həcmində kreditin ayrılması, tərəflər arasında enerji xətlərinin yaradılması, nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi öz əksini tapmışdı. Protokolda həmçinin bank işi, turizim, informasiya sahəsində geniş əməkdaşlıq əlaqələrinin yaradılması, muxtar respublikadan olan 100 tələbənin Türkiyədə təhsil alması haqqında da razılığa gəlinmişdi. Ulu öndər bu protokolu böyük əhəmiyyətə malik tarixi sənəd kimi qiymətləndirmiş, muxtar respublikanın icra strukturlarına protokolun icrası ilə əlaqədar konkret təkliflərlə çıxış etməyi tapşırmışdı. Qısa müddət ərzində protokolda nəzərdə tutulmuş tədbirlərin reallaşdırılması üçün konkret işlər görülməyə başlandı. Telekommunikasiya sahəsində muxtar respublikanın ehtiyaclarını ödəmək üçün Türkiyənin "Teletaş" şitkətinin nümayəndələri bölgəyə gəldilər. 1992-ci ilin aprelində qonşu ölkənin kənd təsərrüfatı nazirliyi əməkdaşlarının Naxçıvana səfəri zamanı böyük miqdarda texniki yardım, gübrə, toxum göndərilməsi haqqında razılıq əldə edilmişdi. [2,3]

Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında 1992-ci il mayın 28-də Azərbaycn xalqı üçün əziz bir gündə-Respublika günündə Araz çayı üzərində açılmış "Sədərək-Dilucu" "Ümid" körpüsü mühüm mərhələ oldu. Naxçıvan torpağı həmin gün böyük bayram əhval-ruhiyyəsi yaşadı. Naxçıvanın tarixində ilk dəfə olaraq dünyanın ən iri dövlətlərindən birinin-Türkiyənin baş naziri birbaşa bu torpağa qonaq gəldi. Bu münasibətlə hava limanında qarşılanma mərasimi də böyük təntənəyə çevrildi. Həmin qarşılamada bir qədər əvvəl Naxçıvana xüsusi təyyarə ilə gəlmiş Türkiyənin 150 nəfərdən artıq yüksək vəzifəli məmur və yaradıcı ziyalılarından ibarət nümayəndə heyəti də iştirak edirdi. Naxçıvan hava limanında S.Dəmirəli böyük məhəbbətlə salamlayan Ali Məclisin sədri H.Əliyev dedi: "İlk dəfə olaraq Türkiyənin baş naziri bu qədim torpağa ayaq basır. Sayın Süleyman Dəmirəl və onu müşayiət edən şəxsləri bu gün burada qarşılamaq kimi bir xoşbəxtlik bizə nəsib olub. Bu körpü bizim ümid və arzularımızın körpüsüdür və türk dünyasına pəncərədir. 70 ildən artıq idi ki, biz bu günü gözləyirdik və arzularımız həyata keçdi." Baş nazir Süleyman Dəmirəl də Heydər Əliyevə, eləcə də naxçıvanlılara sonsuz sevgi və məhəbbətinin bildirdi: "Şadam və xoşbəxtəm ki, bu gün naxçıvanlılarla görüşürəm, sizləri bağrıma basıram. Sizi əmin etmək istəyirəm ki, Türkiyə həmişə Azərbaycanla birgə olmuş və olacaqdır. Dərdinizə də, sevincinizə də şərik olmuşuq."[1. 2,3]

1992-ci ilin iyulunda keçirilmiş Muxtar Respublika Ali Məclisinin Rəyasət Heyətinin iclasında körpünün istifadəyə verilməsi böyük tarixi hadisə kimi qiymətləndirilmiş, Türkiyə ilə Azərbaycan arasında iqtisadi, mədəni, əlaqələrin genişlənməsinə, qardaş xalqların bir-birinə yaxınlaşmasına xidmət edəcəyi bildirilmişdi. Rəyasət heyətinin qərarı ilə "Sədərək-Dilucu" körpüsü Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında rəsmi keçid qapısı elan edildi. Naxçıvan-Türkiyə əlaqələrinin inkişafında ulu öndər H.Əliyevlə S.Dəmirəl arasında yaranmış dostluq münasibətləri xüsusi rol oynayırdı. H. Əliyev Ermənistanın təcavüzü ilə əlaqədar Naxçıvanda yaranmış vəziyyətlə S.Dəmirəl və digər Türkiyə rəhbərlərini daim məlumatlandırmış, təcavüzün dayandırılmas üçün kömək göstərilməsini xahiş etmişdir.

1992-ci ilin mayında Ermənistanın Naxçıvana təcavüzü ilə bağlı Türkiyə hökuməti bəyanat qəbul etmiş və 1921-ci il Qars müqaviləsinə əsasən Naxçıvanın muxtariyyətinin qarantı olduğunu bütün dünyaya bəyan etmişdir. Naxçıvan Muxtar Respublikasını qonşu Türkiyə vilayətləri-Qars, İqdır, Ağrı, Ərzurum, Van ilə də əlaqələri yaranır və möhkəmlənirdi.

Heydər Əliyev Türkiyədə səfərdə olarkən dəfələrlə bu bölgələrdə olmuş həmin vilayətlərin nümayəndə heyətləri də öz növbəsində Naxçıvana işgüzar səfərlər etmişdilər. Xüsusən, Qars və İqdır vilayətləri ilə əlaqələr sürətlə, yüksələn xətt üzrə inkişaf edirdi. [2]

Müasir dünya siyasətçilərindən tutmuş, elm və mədəniyyət xadimlərinin birmənalı şəkildə etiraf etdikləri kimi çağdaş Azərbaycan tarixinin və siyasətinin bayraqdarı olan ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan-Türkiyə mədəni əlaqələrinin inkişafında da danılmaz və əvəzedilməz xidmətləri vardır. Heydər Əliyev birmənalı şəkildə bəyan edirdi ki, “Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr qazanc, para üzərində qurulmamalıdır. Bizim ölkələrimizin böyük mənəvi kökləri var, bunları bir-birinə bağlayan milli köklər var. Bu milli, mənəvi mənafeyi ayrı-ayrı şəxslərin qazancına qurban vermək olmaz. Ona görə də mən bu barədə öz fikrimizi və etirazımızı Türkiyənin bütün dövlət və hökumət başçılarına bildirmişəm. Biz bildirmişik ki, buna yol vermək olmaz.” O, xalqlarımız arasındakı əlaqələrlə bağlı, demək olar ki, bütün çıxışlarında dəyərli mövqeyini ortaya qoyurdu: “Bir də deyirəm ki, Türkiyə-Azərbaycan, Azərbaycan-Türkiyə əlaqələrinin mənəvi, milli kökləri var, bunları heç bir paraya, heç bir dollara, heç bir lirəyə dəyişmək olmaz. Mən xahiş edirəm bunu biləsiniz.”[4]

SSRİ-nin dağılmasından sonrakı dövrdə Azərbaycan-Türkiyə elmi-mədəni əlaqələrindən bəhs edərkən qeyd etməliyik ki, bu əməkdaşlığın hüquqi əsasları diplomatik əlaqələrin qurulmasından sonra daha da intişar tapmışdır. Belə ki, Türkiyə və Azərbaycan diplomatik əlaqələr 14 yanvar 1992-ci ildə qurulmuşdur və bu gün Azərbaycan ilə Türkiyə arasında olan dostluq və qardaşlıq əlaqələri günü-gündən möhkəmlənir, genişlənir və bu dostluq əlaqələri gələcəkdə də inkişaf edəcəkdir. Heydər Əliyevin dönə-dönə vurğuladığı kimi, “ heç bir qüvvə, heç bir kəs, heç bir ölkə Türkiyə-Azərbaycan dostluğuna mane ola bilməz. Bizim dostluğumuz sarsılmazdır, əbədidir və əbədi olacaqdır... Biz çalışacağıq ki, bu dostluğu, qardaşlığı günü-gündən möhkəmlədək və yüksəklərə qaldıraq.” [4]

Azərbaycanın beynəlxalq aləmlə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra bu istiqamətdə kursun yüksələn xətt üzrə inkişafını təmin etdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciətində qeyd etdiyi kimi: “1993-cü ilin yayından başlayaraq, Türkiyəyə münasibətdə də xarici siyasət kursunda ciddi dəyişikliklər edildi və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni mərhələ başlandı. Bu gün Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabər hüquqlu iqtisadi tərəf müqabilidir. İki qardaş dövlətin başçılarının qarşılıqlı rəsmi səfərləri zamanı hərtərəfli əməkdaşlığımızı əhatə edən bir sıra mühüm sənədlər imzalanmışdır. Azərbaycan-Türkiyə münasibətləri iki qardaş xalqın mənafelərinə xidmət etməklə yanaşı, bütün türk dünyası üçün də münüm rol oynayır və türkdilli dövlətlər arasında münasibətlərin inkişafına da güçlü təsir göstərir. Bununla yanaşı dünyada və bölgədə sülhün və əmin-amanlığın bərqərar olunması işinə də öz töhfəsini verir. [1]

Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş bu siyasi kurs bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla və qətiyyətlə davam etdirilir. Azərbaycan-Türkiyə münasibətləri hazırda özünün yüksək zirvəsinə yüksəlib. Azərbaycan və Türkiyə arasında əlaqələrin yüksək səviyyəsi ümumilikdə regionun tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. 44 günlük Vətən müharibəsi zamanı dünya bir daha bunun şahidi oldu. Müharibənin ilk günlərindən qardaş Türkiyə Azərbaycana siyasi-mənəvi dəstək verdi. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan açıq və birmənalı bəyanatlar səsləndirərək, bu müharibədə Azərbaycanın tək olmadığını, Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu bildirdi. Bu gücümüzə güc qatdı, Qarabağ zəfərində mühüm rol oynadı. Xüsusən, Rəcəb Tayyib Ərdoğanın Bakıda Azadlıq

meydanında keçirilən Zəfər paradında prezident İlham Əliyevlə yan-yana dayanması ölkələrimizin birliyini, xalqımızın qardaşlığını bir daha bütün dünyaya nümayiş etdirdi.[5]

Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa bəyannaməsi isə iki ölkə arasındakı münasibətlərdə inqilabi gerçəklikdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" kəlamları ilə xarakterizə olunan Azərbaycan-Türkiyə münasibətləri Şuşa Bəyannaməsi ilə öz zirvəsinə yüksəlib və yeni bir mərhələyə qədəm qoyub. [6]

**_Ədəbiyyat_**


1. Ədalət Qasım oğlu Qasımov. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər). Bakı, 2013.
2. http://www.elibrary.az>QAZET
3. azerbaijans.com/content_764_az.html
4. Fərqanə Hüseynova. Müstəqillik dövründə Azərbaycan Türkiyə əlaqələrinin kulturoloji aspektləri (elm, təhsil, mədəniyyət). Bakı,2007.
5. https://www.trt.net.tr/azerbaycan/turk-dunyasi/2021/06/15/susa-b-yannam-si-az-rbaycan-turkiy-munasib-tl-ri-yeni-m-rh-l-y-q-dmqoydu1658
6. https://axar.az/news/siyaset/566094.html631


## РАЗВИТИЕ АЗЕРБАЙДЖАНО-ТУРЕЦКИХ ОТНОШЕНИЙ В ПЕРИОД РУКОВОДСТВА ГЕЙДАРОМ АЛИЕВЫМ НАХИЧЕВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКОЙ (1991-1993 ГГ.)

**_Намазова Елминаз Магеррам кызы_**

**_Резюме_**


Во время своего руководства Нахичеванской Автономной Республикой Общенациональному Лидеру Гейдару Алиеву удалось преодолеть кризис, вызванный блокадой, и наладить политические и экономические отношения с Турецкой Республикой для удовлетворения потребностей автономной республики.

Были подписаны протоколы для удовлетворения нужд Нахичевани и восстановления связи.

В то же время в статье исследуется неоспоримый и незаменимый вклад Великого Лидера Гейдара Алиева, флагмана современной истории и политики Азербайджана, в развитие азербайджано-турецких культурных связей.

В целом в статье исследуются азербайджано-турецкие отношения в период руководства Общенациональным Лидером Гейдаром Алиевым Нахичеванской Автономной Республикой (1991-1993 годы).


## DEVELOPMENT OF AZERBAIJANI-TURKISH RELATIONS DURING THE LEADERSHIP OF HEYDAR ALIYEV OF THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC (1991-1993)

**_Namazova Elminaz Maharram_**

**_Summary_**


During his leadership of the Nakhchivan Autonomous Republic, National Leader Heydar Aliyev managed to overcome the crisis caused by the blockade and establish political and economic relations with the Republic of Turkey to meet the needs of the autonomous republic.

Protocols were signed to meet the needs of Nakhichevan and restore communications.

At the same time, the article explores the undeniable and irreplaceable contribution of the Great Leader Heydar Aliyev, the flagship of the modern history and politics of Azerbaijan, to the development of Azerbaijani-Turkish cultural ties.

In general, the article explores Azerbaijani-Turkish relations during the leadership of the National Leader Heydar Aliyev of the Nakhchivan Autonomous Republic (1991-1993).

***Rəyçi:dos.A.Cavadov***
***Azərbaycan tarixi kafedrasının 16 sentyabr 2021-ci il tarixli iclasının 01 saylı protokolu***
***Daxil olma tarixi 17 sentyabr 2021-ci il***

**UOT:94.**

# TÜRK-İRAN DOSTLUQ CƏMİYYƏTİNİN YARADILMASI, MƏQSƏDİ VƏ QURULUŞU

***Quliyeva Günay Şöhrəddin qızı***
***Azərbaycan Dövlət Aqrar Universiteti***
gunkakuliyeva@yahoo.com

**Xülasə:** *İki ölkə arasında bir dostluq cəmiyyətinin yaradılmasına olan ehtiyacı 1946-cı il seçkilərində Milli Kalkınma (Dirçəliş) Partiyasından millət vəkili namizədi olan və cəmiyyətin quruluşunda da yer almış İsmail Sıtkı Oğuzbeyoğlu açıqlamışdı. İranla belə bir cəmiyyətin yaradılmasının çatışmazlığını ifadə edən Oğuzbəyoğlu və dostları İran səfiri İbrahim Zənd aralarında Fuad Köprülü və professor Dr.Sani Yavərin də olduğu bir qrupla yemək ziyafəti tərtib etmiş və bu yemək ziyafətində cəmiyyətin qurulması ilə bağlı qərar verilmişdir.*

**Açar sözlər:** Türkiyə-İran-Dostluq Cəmiyyəti-məqsəd-quruluşu
**Ключевые слова:** Турция-Иран-Общество Дружбы-цель-структура
**Keywords:** Turkey-Iran-Society of Friendship-goal-structure

Soyuq Müharibə dövründə Hind coğrafiyasından Orta Şərq coğrafiyasına qədər ölkələrdə baş verən hərbi çevrilişlər, hökümət dəyişiklikləri və siyasətlərdəki təhdid üzərində formalaşan ittifaqlar yeni proseslərin də yaranmasına təkan vermişdir. 1947-ci ildə Muhammed Cinnahın səyləri ilə qurulan Pakistanla quruluş mərhələsinin ardından oxşar modernləşmə mərhələsi izləmiş və özünü oxşar təhdid altında hesab edən Türkiyə arasında mədəni, təhsil, və sosial siyasətlər daxilində fəaliyyət göstərmək məqsədilə bir cəmiyyətin qurulması qərarlaşdırılmış və Türkiyə Pakistan Dostluq cəmiyyəti yaradılmışdı. Bu dövr ərzində formalaşan yeni qüvvələr balansı baxımından Türkiyə Ərəb dostluq cəmiyyətinin də fəaliyyətinin davam etdirildiyi müşahidə edilir. (1, 475).

Ölkələr arasındakı ikitərəfli münasibətlər baxımından cəmiyyətlər əsasən parlamentarilər, Xarici İşlər bürokratları və onların həyat yoldaşları, ölkələrin dilləri və mədəniyyətləri üzərində tədqiqat aparan alimlər və tacirlər tərəfindən yaradılmışdı. Bu cəmiyyətlər fəaliyyət sahəsi olaraq tələbə mübadiləsi, mədəniyyətlə bağlı sərgilər və konfranslar təşkil etmək kimi fəaliyyətləri seçmişlər. Bu cəmiyyətlər ölkələrinin hökümətləri arasında ikitərəfli əlaqələri inkişaf etdirə biləcək anlaşmaların baş tutması və problemlərin diplomatiya yolu ilə həll olunması məqsədilə vasitəçi simasını da daşımışlar. Cəmiyyətlər ölkələr arasında dostluq, əməkdaşlıq anlaşmalarının yaranma mərhələsinin əsasını qoymuşlar. Türk İran Dostluq Cəmiyyəti də İkinci Dünya Müharibəsindən sonra ortaya çıxan Soyuq Müharibə tarazlıqları ilə bağlı Türkiyə və İranın müştərək təhdid altında qalma narahatlığı üzərində formalaşmışdı. Demokratik Partiyanın iqtidarda olduğu dövrdə Türkiyənin ABŞ-la olan hərbi, iqtisadi və siyasi əlaqələrinin inkişaf etməsi ilə İranda Müsəddiqdən sonra Şahın ABŞ-a meylli bir siyasəti dəstəkləyən hökümət qurması, ABŞ-la Truman doktrinası ilə bağlı yardım alan Türkiyə kimi ölkələri bir-birinə yaxınlaşdırmışdı. (1, 475).